# KÖRFƏZ ƏMƏKDAŞLIQ ŞURASI ÖLKƏLƏRİNDƏ DAXİLİ VƏZİYYƏT VƏ PERSPEKTİV İNKİŞAFIN SSENARİLƏRİ

Gülnar Məmmədova | Ramiz Rəhmanov

BAKI-2011

# MÜNDƏRİCAT

Giriş ........................................................................................................................ 5

Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) ölkələrində şiələrin vəziyyəti .................. 6

Yaxın Şərqdə şiəliyin siyasi oyanışı və İranın regiona təsirinin artması ........ 8

KƏŞ ölkələrinin siyasi sistemlərinin problemləri .......................................... 11

Siyasi elitalar: "yuxarıdan inqilab" mümkündürmü? ...................................... 15

İqtisadi problemlər üsyana səbəb ola bilərmi? ............................................ 18

Daxili siyasətin perspektiv inkişaf ssenariləri.................................................. 23

*Mövcud rejimlərin devrilməsi mümkündürmü?*

*Güzəştlərlə status-kvo saxlana bilərmi?*

*Ərəb üsyanları zor gücünə yatırılarsa...*

Nəticə .......................................................................................................... 28

## GİRİŞ

Şimali Afrikada və Yaxın Şərqdə baş verən dəyişikliklərə paralel olaraq, Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) ölkələrinin "demokratiya meylli" qüvvələri də son aylarda, siyasi və iqtisadi islahatlar tələbi ilə çıxış etməyə başlayıblar. Bu, Bəhreyndə və Omanda kütləvi etirazlar, Küveytdə, Səudiyyə Ərəbistanında kiçik nümayişlər, Qətərdə, Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) isə müxtəlif sosial şəbəkələr və yazılı müraciətlər vasitəsi ilə həyata keçirilməkdədir.

Bəhreynin Mirvari meydanında nümayişçilərin tələbləri Misirin Azadlıq (Təhrir) meydanındakı tələblərdən fərqlənməsə də, əhalinin 70 faizini təşkil edən şiələrin azlığı təmsil edən sünni Əl-Xəlifə ailəsi tərəfindən uzun illər siyasi və iqtisadi sistemdən kənar saxlanılması qarşıdurmanın ideoloji tərəfini aşkara çıxarır. Riyadın Manamaya qoşunlarını yeritməsi isə Səudiyyə Ərəbistanında da şiə nümayişlərinin qarşısını almaq məqsədi daşıyır. Fevral ayının 25-də, Səudiyyə Ərəbistanının şiələrin çoxluq təşkil etdiyi Qatif bölgəsində başlayan etirazlar da bu ehtimalı artırır.

Küveytdə isə bu ilin fevralında hökumətin daxili işlər nazirini istefaya göndərməsi ilə təxirə salınan nümayiş, mart ayında Baş nazirin istefası tələbi ilə keçirildi. Eyni zamanda, digər KƏŞ ölkələrindən fərqli olaraq, siyasi müxalifətə və fəal cəmiyyətə malik Küveytin siyasi hərəkatlara görə öz tarixi vardır. Ərəbistan yarımadasının ən sakit ölkəsi hesab edilən Oman Sultanlığında isə son vaxtlara kimi heç kəs xalq üsyanlarının şahidi olmamışdır. Nəticədə, Muskatda Məclis əs-Şura qarşısındakı dinc oturaq nümayiş və ölkənin şimalında, sənaye şəhəri Soharda etirazlar Sultan Qabusu indiyədək olunmayan siyasi və iqtisadi güzəştlərə məcbur etdi.

BƏƏ-də, Qətərdə, Səudiyyə Ərəbistanında "demokratiya meylli" qüvvələr müxtəlif sosial şəbəkələr və müraciətlər vasitəsilə fevral və mart aylarında yerli hakimiyyətə qarşı inqilaba çağırsalar da, hələ ki, heç bir etiraz aksiyası baş verməmişdir.

Bəhreyn üsyanı KƏŞ ölkələrində siyasi və iqtisadi problemləri, üsyana və narazılıqlara səbəb ola biləcək amilləri və region ölkələrinin buna davam gətirə bilməsi məsələsini artıq müzakirəyə çıxarıbdır. Həm KƏŞ-in bütövlükdə, həm də ayrı-ayrı ölkələrin özünəməxsus xüsusiyyətlərini nəzərə alsaq, bu regionda bəzi ölkələrdə baş verən və baş verə biləcək xalq hərəkatlarının Misir və Tunis hadisələrindən birbaşa qaynaqlandığını demək yanlış olardı. Eyni zamanda, hər bir ölkənin spesifik xüsusiyyətlərini nəzərə aldıqda hadisələrin inkişafı həm region, həm də dünya üçün fərqli nəticələr ortaya çıxara bilər.

Ümumiyyətlə, daxili və regional səviyyədə məzhəb fərqlilikləri, ölkənin

siyasi sistemində təmsilçilik məsələsi, hakim ailələr daxilində gedən proseslər bu ölkələrin siyasi sabitliyi baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, neftin qiymətinin mütəmadi olaraq azalması əsas gəlir mənbəyi karbohidrogen ixracı olan bu ölkələrdə hazırkı dotasiya sistemini və dövlət sektorunu qıra bilər. Bu da gələcəkdə ictimai iğtişaşlara səbəb olar.

Bu hesabatda KƏŞ ölkələrində iqtisadi və siyasi amillərin hazırkı vəziyyəti və mümkün olan inkişaf perspektivləri araşdırılacaqdır.

## KÖRFƏZ ƏMƏKDAŞLIQ ŞURASI ÖLKƏLƏRİNDƏ (KƏŞ) ŞİƏLƏRİN VƏZİYYƏTİ

Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) ölkələrinin etirazların baş verdiyi digər ərəb ölkələrindən fərqi burada sünni-şiə gərginliyinin mövcudluğudur. Əsrlərdir ki, sünni elitalar tərəfindən idarə olunan bütün KƏŞ ölkələrində şiələrin həm sayı, həm də onlara münasibət eyni deyildir. Belə ki, şiələr Küveytdə, Səudiyyə Ərəbistanında, BƏƏ-də, Oman və Qətərdə azlıq, Bəhreyndə isə çoxluq təşkil edirlər. Həmçinin, Bəhreyn və Səudiyyə Ərəbistanında hökumət ilə şiələr arasında münasibətlər digər KƏŞ ölkələrinə nisbətən daha ciddidir.

Bəhreyndə və Səudiyyə Ərəbistanında 1970-ci illərdən başlayaraq şiələr ilə hökumət qüvvələri arasında baş verən toqquşmalar şiələrə qarşı sərt siyasətlə nəticələnmişdir. Lakin şiə təzyiqlərinə cavab olaraq Bəhreynin və Səudiyyə Ərəbistanının islahatlara münasibəti də eyni olmamışdır.

**Bəhreyndə,** kral Şeyx Həməd bin İsa Əl-Xəlifənin islahatları nəticəsində şiələr Əl-Vifaq partiyasının təmsilçiliyi altında həm xalq tərəfindən seçilən parlamentdə, həm də hökumətdə təmsil olunmuşlar. Lakin bu islahatlara baxmayaraq, şiələr “ikinci dərəcəli vətəndaş” hesab olunduqlarına görə dövləti hələ də ittiham etməkdədirlər. Bu, onların siyasi strukturlarda sıxışdırıldıqları (əhalinin çoxluğunu təşkil etmələrinə baxmayaraq parlamentdə azlıqda olmaları - 40 üzvdən ibarət parlamentdə sonuncu seçkilər zamanı Əl-Vifaq 18 yer qazanmışdır), təhlükəsizlik sektorunda təmsil olunmamaları, hökumətin ölkənin demoqrafik balansını bəhreynli olmayan sünni ərəblərə vətəndaşlıq verməklə dəyişməsi haqqında iddiaları ilə bağlıdır. Beləliklə, siyasi islahatların səviyyəsindən narazı olan şiələr və polis arasında toqquşmalar 2004-cü ildən etibarən yenidən qızışmış, 2010-cu ilin seçkiləri ərəfəsində 25 nüfuzlu şiə ictimai xadiminin hakimiyyətə qarşı sui-qəsddə və terrorizmdə ittiham edilərək həbs olunmasından sonra kulminasiya nöqtəsinə çatmışdır. Bu qarşıdurma bu ilin fevralında ərəb dünyasında qarışıqlıq fonunda daha da kəskinləşmişdir.[1]

**Səudiyyə Ərəbistanında** isə əksinə islahatçı kimi tanınan Kral Abdullanın 2003-cü ildən sonra keçirmək istədiyi islahatlar Sələfilərin/Vəhabilərin müqaviməti

1 Kenneth Katzman , Bahrain : reform, security, and U.S policy, CRS Report for Congress, http://www.fas.org/sgp/crs/mideast/95-1013.pdf,( 02. 3.2011)



**Bəhreyn, Mirvari meydanında etiraz aksiyası**

nəticəsində baş tutmamış, ümumi əhalinin 10-15 faizini təşkil edən şiələrin nəinki siyasi, hətta ibadət azadlığından da məhrumiyyəti davam etmişdir. Bu, müxtəlif islami məzhəblərin mövcud olduğu Səudiyyə Ərəbistanında dini, siyasi və hüquqi sahədə digər məzhəblərdən üstün mövqeyə malik Sələfilərin/Vəhabilərin şiəliyi din olaraq görməməsi ilə əlaqədardır.[2] Eyni zamanda, Bəhreyndən daha artıq iqtisadi və siyasi imkanlara sahib Səudiyyə Ərəbistanının şiələrə qarşı siyasəti özünü təkcə ölkə daxilində deyil, regional siyasətdə də göstərmişdir. Bunu Krallığın İraqda şiələrə qarşı sünni iqtidarını, Livanda Hizbullaha qarşı Səid Həriri blokunu dəstəkləməsi, Yəməndə isə şiə Hutsi üsyanının zorakılıqla yatırılmasında iştirakı təsdiq edir. Şiələrlə onlara İranın "beşinci kolonnası" kimi baxan Səudiyyə Ərəbistanı hakimiyyəti arasında 2005-ci ildən sonra gərginlik yenidən artmış və 2009-cu ilin fevralında Mədinədə toqquşmalara gətirib çıxarmışdır.[3]

Şiələr **Küveyt** (ümumi əhalinin 30 faizi), **Birləşmiş Ərəb Əmirliyi** (6 faiz), **Qətər** (16 faiz) və **Omanda** (10 faiz) sünnilərlə yanaşı, dini ibadətlərində azaddırlar və bərabər şəkildə hökumətdə və biznes strukturlarında təmsil olunurlar. Şiə-sünni münasibətləri Sələfilərin də hakimiyyət orqanlarında təmsil olunduğu və güclü mövqeyə malik olduğu Küveytdə daha gərgindir. Məsələn, 2008-ci ildə Küveytdə Hizbullahın tanınmış lideri İmad Muqniyənin qətlindən sonra yürüşə çıxan şiələr həbs olunmuşdular. Əksinə,

2 The Shiite Question in Saudi Arabia, International Crisis Group, Middle East Report N:45, (19.09.2005)

3 Suudi Arabistanda şii muhalefet sorunu ve etkileri, ORSAM, Rapor No:32, http://www.orsam.org.tr/tr/trUploads/Yazilar/Dosyalar/2011322_orsam.rapor.no.32.pdf.pdf, 02.2011

sünni küveytlilər İmad Muqniyəni Küveyt vətəndaşlarının öldürülməsində günahkar görürdülər.[4] BƏƏ -də isə nəinki şiə-sünni qarşıdurması, hətta tanınmış islamçı hərəkat belə yoxdur. Digər ərəb dövlətlərindən fərqli olaraq nə 2003-cü ildə ABŞ-ın İraqı işğalının, nə də ki, 2006-cı ildə İsrailin Livanda Hizbullaha qarşı hərbi əməliyyatlarının bu ölkədə etiraz aksiyalarına gətirib çıxarmaması bunu göstərir. ABŞ Dövlət Departamentinin "Qətər 2009-cu il, İnsan hüquqları" adlı məruzəsində bu ölkədə şiələrin ibadət azadlıqları ilə yanaşı, hökumətdə və biznes strukturlarında təmsil olunduğu bildirilir.[5] Əhalisi əsasən İbaditlərdən (islamın şiəlikdən və sünnilikdən fərqli qolu) və sünnilərdən ibarət olan, sultanın isə İbadit cəmiyyətinə mənsub olduğu Omanda hökumət hər hansı dini qrupa üstünlük vermir.

## YAXIN ŞƏRQDƏ ŞİƏLİYİN SİYASİ OYANIŞI VƏ İRANIN REGİONA TƏSİRİNİN ARTMASI

Məzhəb qarşıdurmasının dini (şiəliyin sünni islamın fundamental qanadı olan Sələfilik/Vəhabilik tərəfindən bidət kimi qəbulu) səbəbləri ilə yanaşı, siyasi (İraqda və Livanda şiələrin hakimiyyətdə üstünlük qazanması ilə İranın regiona təsirinin artması) səbəbləri də mövcuddur. Bu, KƏŞ ölkələrinin daxilindəki şiə-sünni qüvvə tarazlığının regionda ümumi qüvvənin tarazlığına mümkün təsirlərindən irəli gəlir.

İran və KƏŞ ölkələri arasında tarixi rəqabət ərəb ölkələrinin yerli şiə əhalisinə İranın "beşinci kolonnası" kimi baxması ilə nəticələnmişdir. Bunu da üç amillə əsaslandırmaq olar:

**Birincisi,** bu KƏŞ ölkələrinin şiə əhalisinin İranda, İraqda və Livanda şiəliyin siyasi oyanışına reaksiya verərək, öz hökumətlərinə qarşı qalxmaları ilə bağlıdır. Belə ki, İranda inqilabın qalib gəlməsi, daha sonra isə İraqda Muqtəda Əl-Sadr tərəfdarlarının, Livanda isə Hizbullahın hakimiyyətə gəlməsi ilə eyni vaxtda KƏŞ ölkələrində də şiə üsyanları baş vermişdir. Bu paralellər əsasən özünü Səudiyyə Ərəbistanında və Bəhreyndə göstərmişdir. Məsələn, İran inqilabı ilə bir vaxtda Səudiyyə Ərəbistanında şiələrin yığcam şəkildə yaşadığı Qatif bölgəsində şiə üsyanı baş vermişdir. İraqda 2005-ci il seçkilərindən sonra şiələrin siyasi rolunun artması ilə eyni vaxtda Bəhreyndə də şiələrlə təhlükəsizlik qüvvələri arasında toqquşmalar yenidən baş qaldırmış və 2011-ci ilin fevralında kulminasiya nöqtəsinə çatmışdır.

**İkincisi,** KƏŞ-in sünni elitaları yerli şiə əhalisinin transsərhəd dini və mədəni əlaqələrini əsas gətirərək onların dövlətə sadiqliyinə şübhə ilə yanaşır. Qeyd edək ki, KƏŞ ölkələrində şiələrin yerli ayətullaları olmadığı üçün onlar İraqda, İranda və Livanda fəaliyyət göstərən *mərciyə* (şiələrin

4 Kuwait risk: scenario watchlist economist Intellegence Unit, http://www.eiu.com/index.asp?layout=RKArticleVW3&article_id=27920787&country_id=290000029&refm=rkCtry&page_title=Latest alerts, (13.12.2010)

5 2009 Human Rights Report: Qatar, US Department of State, http://www.state.gov/g/drl/rls/hrrpt/2009/nea/136078.htm, (11.03. 2010)



İran prezidenti Mahmud Əhmidinecat və Səudiyyə Ərəbistanı Kralı Abdulla bin Əbdül-Əziz Əl-Səud

dini orqanı) tabedirlər. Belə ki, Nəcəfdə Əli Əl-Sistani, Qumda Məhəmməd Sadiq Şirazi, Kərbəlada Məhəmməd Tağı Əl-Mudarrisi KƏŞ-dəki şiələr üçün dini rəhbər rolunu oynayırlar. Həmçinin, şiə hərəkatları arasında (məsələn, Səudiyyədə İman Xəttinin Davamçıları-Ənsər Xat Əl-İmam) Xomeyninin Vilayet-feqih prinsipini müdafiə edən və İranın hazırkı ali dini lideri ayətullah Xamenei xəttinin ardıcılları da vardır.[6] Bəhreynin ən böyük müxalifət hərəkatı "Haqq"ın lideri Hassan Muşeymə isə İran tərəfdarı kimi tanınır.

**Üçüncüsü,** İraqda, Livanda şiə qruplarının hakimiyyətə gəlməsi ilə İranın regionda təsirinin artması reallığa çevrilmiş və bu da KƏŞ ölkələrində yerli şiə əhalisinə qarşı şübhəli münasibət yaratmışdır. KƏŞ ölkələrində İranın şiələrə təsir imkanları tam məlum olmasa da, Bəhreyndə şiələrin çoxluğu İrana regional ambisiyalarını bu ölkə vasitəsi ilə həyata keçirməyə əlverişli şərait yaradır. Əvvəlki illərdə Səudiyyə Ərəbistanının İraqda və Livanda sünniləri, İranın isə şiə qruplarını dəstəkləməsi İran-Səudiyyə qarşıdurmasına gətirib çıxarmışdır. Eləcə də Bəhreyndə şiə üsyanı İraqdan ABŞ qoşunlarının çıxması ərəfəsində İrana manevr etmək üçün yeni bir məkan yaradır. KƏŞ ölkələrində sabitliyin pozulması həm ABŞ-ın regiondakı mövqelərini təhlükə altına qoyur həm də ərəb dövlətlərinin zəifləməsi İranın tarixən Fars Körfəzində iddia etdiyi dominantlığa gətirib çıxara bilər.

KƏŞ Yarımada Müdafiə Qüvvələrinin etirazları yatırmaq üçün Bəhreynə daxil olması yerli iğtişaşın regional böhrana sürüklənməsinə səbəb ola bilər. İranın Yəməndə və Bəhreyndə şiələri

6 The Shiite Question in Saudi Arabia, İnternational Crisis Group, Middle East Report N:45, (19.09.2005)
Bahrain's Sectarian Challenge, İnternational Crisis Group, Middle East Report N:40, ( 06.05.2005)

dəstəkləməkdə israr etməsi, son həftələrdə onun qonşuları ilə münasibətlərini daha da gərginləşdirmişdir. Belə ki, Tehran Manamanın və Ər-Riyadın ünvanına hədə dolu bəyanatlarla çıxış edərək, qoşunların Bəhreyndən çıxarılmasını tələb etmişdir. Gərginlik Tehran və Manama arasında diplomatların məsləhətləşmə üçün geri çağırılması ilə nəticələnibdir. Küveytdə və Bəhreyndə İrana casusluq edən dəstənin aşkarlanması isə diplomatik qalmaqala çevrilmişdir. Belə ki, Küveytdə İran İnqilab Qvardiyasına məlumat ötürməkdə təqsirli bilinən casus dəstəsinin üç üzvü (ikisi İran vətəndaşı) edam edilib və İran diplomatları bu dəstə ilə əlaqədə ittiham edilərək ölkədən çıxarılmışdır.[7] Bunun ardınca iki Bəhreyn vətəndaşı Küveytdə aşkar edilən casus dəstəsi ilə əlaqədə və İrana məlumat ötürməkdə ittiham edilərək polis tərəfindən saxlanılmışdır. Eyni zamanda, Manama İran səfirliyinin ikinci katibini casusluqda ittiham edərək arzu olunmaz şəxs elan etmiş və onun 72 saat ərzində ölkədən çıxmasını istəmişdir.[8] Ər-Riyad da öz növbəsində Tehranı İrandan diplomatlarını geri çağırmaqla hədələmişdir. Bu bəyanat Tehranda Krallığın səfirliyi qarşısında iranlı tələbələrin nümayiş keçirməsindən sonra səslənmişdir.[9] Bütün bunlar İran və KƏŞ ölkələri arasında münasibətlərin bundan sonra asan olmayacağını göstərir. Eyni zamanda, KƏŞ ölkələri İranın region dövlətlərinin işlərinə qarışması məsələsini müzakirə etmək üçün Ər-Riyadda keçirdiyi fövqəladə iclasda İranı KƏŞ ölkələrinin işlərinə qarışmaqdan çəkinməyə çağırmışdır.[10] Bu addım KƏŞ-in İrana qarşı birgə addımları əlaqələndirmək istəyindən irəli gəlir.

Bəhreyndə xarici qoşunların mövcudluğu həm Bəhreynin daxilində, həm də İraqda, Livanda və KƏŞ ölkələrindən olan Səudiyyə Ərəbistanında və Küveytdə sünni-şiə gərginliyinin artırılması deməkdir. Belə ki, nüfuzlu sünni din xadimi Yusif Əl-Qaradavi, Bəhreyn üsyanını xalq üsyanı kimi deyil, məzhəb üsyanı kimi qiymətləndirməklə faktiki olaraq, KƏŞ ölkələrinin bu üsyanı yatırmasını dəstəkləmişdir. Onun çıxışı regionun sünnilərini razı salsa da, şiələrini hiddətləndiribdir. Əksinə, Livanda Hizbullahın baş katibi Həsən Nəsrullah və İranın ali dini lideri Xamenei KƏŞ qüvvələrinin Bəhreynə yeridilməsini pisləmişdir. Muqtəda Əl-Sadr isə İraqdakı tərəfdarlarını Bəhreyndə olan din qardaşlarına dəstək nümayişi keçirməyə çağırmışdır. İraqın Baş naziri Nur Əl-Maliki isə xarici müdaxilə ilə regionun məzhəb müharibəsinə cəlb oluna biləcəyi barədə xəbərdarlıq etmişdir. Bəhreynlilər arasında ən məşhur mərciyə-təqlid olan ali ayətullah Əli Əl-Sistani bəhreynlilərin dinc etiraz

7 GCC states condemn Iran's blatant interference in Kuwait's affairs, http://www.kuwaittimes.net/read_news.php?newsid=MTI3NDY1Njg5MQ= ,( 05.05.2011)

8 Bahrain ousts Iranian diplomat, http://gulfnews.com/news/gulf/bahrain/bahrain-ousts-iranian-diplomat-1.799652, (27.04.2011)

9 Saudi Arabia threatens to withdraw envoys from Iran, http://gulfnews.com/news/gulf/saudi-arabia/saudi-arabia-threatens-to-withdraw-envoys-from-iran-1.795314, 17.04. 2011

10 GCC rejects Iran meddling, , http://gulfnews.com/news/gulf/saudi-arabia/gcc-rejects-iran-meddling-1.787220,( 4.05.2011)

etmək hüquqlarını təsdiqləyib. Sistaninin siyasi cəhətdən fəal olmayanlar da daxil olmaqla şiələr arasındakı nüfuzunu nəzərə alsaq, bu mövqenin Səudiyyə Ərəbistanı və Küveytdəki şiələrə də təsir göstərəcəyini gözləmək olar.[11] Beləliklə, nüfuzlu şiə/sünni din və siyasi xadimlərinin xalq kütlələrinə mümkün təsirləri region boyu məzhəb gərginliyini artıra bilər.

## KƏŞ ÖLKƏLƏRİNİN SİYASİ SİSTEMLƏRİNİN PROBLEMLƏRİ

Misir, Tunis, Liviya və digər ərəb dövlətlərində baş verən üsyanların kökündə iqtisadi amillərlə yanaşı, siyasi azadlıqların olmaması, islahatların aparılmaması, parlamentlərin məhdud səlahiyyətləri, hakimiyyətin bir qrupun əlində cəmləşməsi, xarici siyasətdən narazılıq və bir sıra siyasi amillər də dayanır. Bu zaman yuxarıda sadalanan amillərin KƏŞ ölkələrində də kütləvi nümayişlərə gətirib çıxa bilmə ehtimalı ortaya çıxır. Artıq Bəhreyn, Səudiyyə Ərəbistanı, Oman və Küveytdə keçirilən nümayişlərdə, Qətərdə, BƏƏ-də müxtəlif sosial şəbəkələrdə və verilmiş bəyanatlarda siyasi sistemdən narazılıq ifadə edilmiş, islahatlar tələb olunmuşdur. Buna baxmayaraq, KƏŞ ölkələrinin özünəməxsus xüsusiyyətləri hər bir ölkə üçün nəticələri də fərqli edəcəkdir.

Məlum olduğu kimi, KƏŞ ölkələrində icraedici hakimiyyət irsidir. Bu ölkələrdə hakim ailələrin üzvləri ən mühüm nazir vəzifələrini tutur, vilayətlərə və şəhərlərə rəhbərlik edirlər. Həmçinin, əsas şahzadələrdən başqa yüzlərlə ikinci nəsil və kiçik kral ailəsi üzvləri sistemdə təmsil olunmaqda iddialıdırlar və həm də bir çox hallarda dövlət mexanizmlərindən şəxsi maraqları naminə istifadə edirlər. Bu səbəbdən sistemlər inzibati səmərəsizlik və sui-istifadə halları ilə doludur. Bundan başqa, bu ölkələrdə dövlət orqanlarının səlahiyyətləri çox məhduddur.

Siyasi islahatların həyata keçirilməsi baxımından KƏŞ ölkələri bir-birindən fərqlənir. Bəhreyn və Küveyt siyasi islahatlar baxımından daha qabaqcıl ölkələr olduğu halda, Oman, Qətər və BƏƏ-də demokratik islahatlar çox zəif, Səudiyyə Ərəbistanında isə siyasi islahatlar yox dərəcəsindədir.

**BƏƏ, Oman, Qətər, Səudiyyə Ərəbistanında** parlament rolunu oynayan məşvərətçi şuralar mövcud olsa da, bu şuraların qanunverici səlahiyyətləri yoxdur və fəaliyyətləri sosial və iqtisadi məsələlərin müzakirəsi ilə məhdudlaşıbdır. Oman istisna olmaqla, parlamentlərə seçkilər keçirilmir (BƏƏ-də Milli Federal Şura dolayısı yolla seçilir). BƏƏ-də, Qətərdə və Səudiyyə Ərəbistanında dövlət rəsmiləri şuraların bir hissəsinin seçkilər vasitəsilə seçilməsini gündəmə gətirsələr də, lakin gözlənilən seçkilər hələ ki, baş tutmayıbdır. Bu ölkələrdə siyasi partiyaların fəaliyyətinə icazə verilmir və müxalifət hərəkatları qadağan edilmişdir. Bunlar güclü müxalifət olmadığına görə bir sıra KƏŞ ölkələrindən siyasi islahatlar baxımından da geridə qalıbdır.

11 Popular protests in North Africa and the Middle East (III): the Bahrain revolt, International Crisis Group, Middle East/North Africa Report N°105,( 06.04.2011)

**Səudiyyə Ərəbistanı** KƏŞ ölkələri içərisində islahatlara ən çox müqavimət göstərən ölkədir. Krallığın siyasi sistemi kral ailəsi və rəsmi dini institutlar arasında razılaşdırılmış şəkildə idarə edilir. Rəsmi dini institutlar Əl-Səud ailəsi hakimiyyətinin legitimliyinin mənbəyidir. Bugünkü siyasi kontekstdə heç bir Səudiyyə başçısı ölkənin rəsmi dini qurumlarının reaksiyasını nəzərə almadan mühüm siyasi dəyişiklik həyata keçirə bilməz.[12] Kral Abdullanın islahatlar səyləri Səud ailəsinin mühafizəkar üzvlərinin müqaviməti ilə qarşılaşır. Bu səbəbdən bu islahatların institutsional əsası yoxdur və onlar sistemləşdirilməmişdir.[13] Bu, zəif islahatların hakimiyyətə digər şəxs gələcəyi təqdirdə ləğv edilə biləcəyi deməkdir. Eyni zamanda, on minlərlə gənc səudiyyəlinin qərb ölkələrində təhsil almalarına və demokratik dəyərlərə əvvəlkindən daha açıq olmalarına baxmayaraq, Səudiyyə Ərəbistanı yüksək dərəcədə mühafizəkar cəmiyyət olaraq qalır. Keçirilən sosial sorğuya əsasən 20 faiz səudiyyəli siyasi və sosial dəyişiklikləri, 20 faiz status-kvonun davam etməsini dəstəkləyir, 60 faiz isə Kral Abdullanın həyata keçirdiyi islahatların səviyyəsindən razıdır.[14]

**Oman** Sultanı Qabus bin Səid əl-Səid 40 il bundan əvvəl atasını devirərək hakimiyyətə gəldiyi zaman bir çox sahələrdə dəyişikliklər edərək, ölkəni unudulmuş səhra dövlətindən inkişaf edən dövlətə çevirə bilmişdir. Eləcə də Qabus siyasi azadlıqlara başlayan ilk KƏŞ monarxlarından biridir və o, bütün bunları 1980-ci illərdən başlayaraq daxildən və xaricdən heç bir siyasi təzyiq olmadan etmişdir. Omanda siyasi azadlıqlar prosesi KƏŞ ölkələrindən erkən başlasa da, inkişaf ləng getmişdir. Bir çox müşahidəçilər Sultan Qabusun omanlılar arasında məşhur olmasını və siyasi azadlıqlara qoyulan məhdudiyyətlərdən narazılığın heç də çox olmadığını desələr də, 2011-ci ilin fevralından başlayaraq ölkəni bürüyən və hazırda davam etməkdə olan etiraz aksiyaları bir çox vətəndaşın ölkədəki siyasi vəziyyətdən məmnun olmadığını göstərir.[15]

**Qətər və BƏƏ** siyasi islahatların hakim ailənin ənənəvi hakimiyyətinin zəiflətməsinə, qəbilə və klanlar arasında ayrılmaya, Küveyt və Bəhreyndə olduğu kimi islamçı fraksiyaların radikallaşmasına gətirib çıxaracağını əsas göstərərək təxirə salıblar. Lakin bu iki ölkədə əhali arasında ümumi marağın olmaması və hakim ailədaxili fikir ayrılıqları siyasi islahatların keçirilməsinin vaxtını daha da uzada bilər.

**Küveytin və Bəhreynin** siyasi həyatı digər KƏŞ ölkələrindən daha canlıdır. Bu ölkələrin parlamentləri qanunverici və nəzarətedici səlahiyyətlərə malikdirlər. Lakin Bəhreyndə seçilən alt palatada təmsil olunan müxalifət, hökumət tərəfindən təyin edilən yu-

12 Can Saudi Arabia reform itself, International Crisis Group, Middle East Report N°28,( 14.07.2004)

13 Neil Partrick, What does "reform" mean in Saudi Arabia?, http://www.carnegieendowment.org/arb/?fa=show&article=41286, 27.07.2010

14 Robert Lacey, Christopher Boucek , Will Tahrir come to Saudi Arabia?, http://carnegieendowment.org/events/?fa=eventDetail&id=3178, 03.03. 2011

15 Kenneth Katzman, Oman: Reform, Security, and U.S. Policy, CRS Report for Congress, http://www.fas.org/sgp/crs/mideast/RS21534.pdf, 01.3.2011




**Omanda etiraz aksiyası**

xarı palata ilə razılaşa bilmədiyindən, səlahiyyətlərindən praktikada istifadə edə bilmir. Küveytdə isə əksinə antihökumət mövqeyinə görə tanınan parlament səlahiyyətlərindən sui-istifadə etməklə siyasi gərginliyə səbəb olur.

Bu iki ölkədə digər KƏŞ ölkələrindən fərqli olaraq, siyasi arenada bir sıra qruplar fəaliyyət göstərir. Eyni zamanda, bu ölkələrdə islamçıların vəziyyəti Misirdən fərqlidir. Belə ki, Misirin Müsəlman Qardaşları liderləri hərbi məhkəmələrə cəlb olunarkən Küveytdə HADAS (Müsəlman Qardaşlarının Küveyt qanadı) və Bəhreyndə Minbər (Müsəlman Qardaşlarının Bəhreyn qanadı), Sələfilərin Əl-Asalə cəmiyyəti, şiə cəmiyyətinin aparıcı siyasi partiyası olan Əl-Vifaq normal siyasi həyata inteqrasiya ola biliblər.

Lakin son günlərdə Bəhreyndə baş verən etiraz aksiyaları və hökumətin tutduğu mövqe bu ölkəni demokratiya yolunda geriyə aparmaqdadır. Belə ki, Bəhreyndə fövqəladə vəziyyətin elan edilməsi və bu ölkəyə KƏŞ qüvvələrinin yeridilməsi daha əvvəl Şahzadə Salmanın irəli sürdüyü siyasi dialoqu yarımçıq qoymuşdur. Hazırda, müxalifətə qarşı olan təqiblər davam etməkdədir. Belə ki, həkimlər və fəallar daxil olmaqla 400 nəfər polis nəzarətində saxlanılmaqdadır. Fevral ayından bəri 4-ü polis nəzarətində olmaqla ən azı 30 fəal öldürülübdür. Həmçinin müxalifətdən olanların dövlət işlərindən çıxarılması haqqında xəbərlər də yayılmaqdadır. Aprelin 28-də Bəhreyn hərbi məhkəməsi iki polisin öldürülməsində günahkar bilinən dörd fəal iştirakçı haqqında ölüm hökmü çıxarmışdır.[16] Hökumət şiələri

16 Four sentenced to death in Bahrain, http://gulfnews.com/news/gulf/bahrain/four-sentenced-to-death-in-bahrain-1.800304, 28.04. 2011



Bəhreyndə etiraz aksiyası

təmsil edən Əl-Vifaq və İslam Fəaliyyəti Cəmiyyətlərini qadağan etmək planlarını isə ancaq rəsmi Vaşinqtonun tənqidindən sonra təxirə salmışdır.[17]

Küveyt KƏŞ-in ən demokratik siyasi sistemə malik ölkəsi, onun parlamenti isə ərəb dünyasının demokratik meyarları ilə seçilən institutudur. Lakin Milli Assambleya (parlament) və hakim Əl-Sabah ailəsi arasında beş ildir ki, siyasi dominantlıq uğrunda gedən mübarizə, deputatlar tərəfindən Əl-Sabah ailəsinə qarşı korrupsiya ittihamları, nazirləri parlamentdə sorğuya çəkmək tələbləri (xüsusilə Baş nazir Şeyx Nasir Əl-Məhəmməd Əl-Sabaha qarşı) Küveyt siyasi sistemini faktiki olaraq iflic vəziyyətinə salıbdır. 2006-cı ildən bəri üç dəfə növbədənkənar parlament seçkilərindən heç biri icraedici və qanunverici hakimiyyət arasındakı fikir ayrılıqlarını yoluna qoya bilməyibdir.[18] 2011-ci ilin aprel ayının əvvəllərində deputatların parlamentdə bir neçə naziri sorğuya çəkmək tələbi hökumətin yenidən buraxılması ilə nəticələnmişdir. Lakin deputatların bildirdiklərinə görə kabinetə yeni Baş nazir və nazirlər təyin olunmayanadək onlar sorğu tələblərini davam etdirəcəklər.[19] Bu da o deməkdir ki, Küveytdə hökumət böhranı davam edəcəkdir. Həm də parlamentin buraxılması və yenidən erkən seçkilərin keçirilməsi haqqında xəbərlər yayılıbdır. Hökumət böhranı 2010-cu ilin

17 Bahrain backs off on closure of opposition group, http://gulfnews.com/news/gulf/bahrain/bahrain-backs-off-on-closure-of-opposition-group-1.792901, 15.04. 2011

18 Kenneth Katzman, Kuwait: Security, Reform, and U.S. Policy, CRS Report for Congress http://www.fas.org/sgp/crs/mideast/RS21513.pdf,0 8.02.2011

19 MPs warn of reviving grilling against reappointed ministers, http://www.kuwaittimes.net/read_news.php?newsid=MTA0NjMwNjg1Nw==, 03.04. 2011

dekabrında və bu ilin martında olduğu kimi, Əl-Sabah ailəsinin səlahiyyətlərinin məhdudlaşdırılması tələbi ilə etiraz aksiyalarını yenidən canlandıra bilər.

Beləliklə, yuxarıda deyilənlərdən göründüyü kimi, KƏŞ ölkələrinin siyasi sistemləri demokratik azadlıqlar və habelə demokratiya tələbləri baxımından fərqlənir. Səudiyyə Ərəbistanında dini institutların güclü olması, cəmiyyətin mühafizəkarlığı demokratik dəyərlərin bu ölkəyə hələ uzun müddət gəlməyəcəyindən xəbər verir. BƏƏ-də və Qətərdə isə ölkənin varidatından irəli gələn yüksək həyat səviyyəsi siyasi laqeydliklə müşahidə olunmaqda davam edə bilər. “Demokratiya dalğası” ən çox Küveyt, Bəhreyn və son hadisələrdən sonra bəlli olduğu kimi Oman üçün də daha təsirli ola bilər.

## SİYASİ ELİTALAR: “YUXARIDAN İNQİLAB” MÜMKÜNDÜRMÜ?

Regionda, xüsusilə Tunisdə və Misirdə olan qarışıqlıq Yaxın Şərqdə siyasi elitaların buna davam gətirməsi barədə sualları ortaya çıxarıbdır. Lakin KƏŞ ölkələrinin siyasi elitalarının inqilabın baş verdiyi ölkələrin siyasi elitalarından bir neçə fərqi vardır. Birincisi, bu ölkələrin siyasi elitaları əsasən ailə üzvlərindən ibarədir. Belə ki, Bəhreyndə Əl-Xəlifə, Omanda Əl-Səid, Küveytdə Əl-Sabah, Qətərdə Əl-Səni, Səudiyyə Ərəbistanında Əl-Səud, BƏƏ-də Əl-Nəhyan ailələri bu ölkələri bir neçə əsrdir ki, idarə edirlər. İkincisi, bu ölkələrdə Misirdən və Tunisdən fərqli olaraq, hakimiyyətə əsas təhlükəni və müxalifəti təkcə siyasi elitanın xaricində deyil, həm



**Soldan: Küveyt Əmiri Sabah Əl-Əhməd Əl-Cabir Əl-Sabah, Qətər Əmiri Həməd bin Xəlifə Əl-Sani, Oman Sultanı Qabus bin Səid Əl Səid, Səudiyyə Ərəbistanı Kralı Abdulla bin Əbdül-Əziz Əl-Səud , Bəhreyn Kralı Həməd bin İsa Əl-Xəlifə, BƏƏ Əmiri Xəlifə bin Zeyid Əl-Nəhyan**

də onun daxilində gözləmək olar. Üçüncüsü, regionda baş verən hadisələr və bəzi KƏŞ ölkələrinin daxilində baş verən etirazlar fonunda bu ölkələrdə aktual olan varislik məsələsi və hakim ailədaxili gərginlik daha kəskin xarakter alarsa, bu, hadisələrin gedişinə mühüm təsir göstərəcəkdir. Beləliklə, KƏŞ-də siyasi elitalarla bağlı əsas problemləri ümumiləşdirsək, aşağıdakı məsələlər sabitliyi pozabilmə ehtimalı ilə maraq doğurur.

Ölkənin başçısı (kral, əmir və ya sultan) öldüyü zaman **varislik məsələsinin** rəqib namizədlər arasında gərginliyə səbəb olması KƏŞ ölkələrinin ənənəvi xüsusiyyətlərindəndir. Hazırda bu ölkələrdə varislik məsələsi ətrafında qeyri-müəyyənlik davam edir. Bu, ilk növbədə, ölkələrin hakim ailə və dövlət başçılarının (Qətər istisna olmaqla) yaşlarının 70-dən yuxarı olması ilə bağlıdır. Bundan əlavə, bütün dövlət başçıları (Oman istisna olmaqla) öz vəliəhdlərini əvvəlcədən təyin etsələr də, Küveyt və Səudiyyə Ərəbistanında vəliəhdlərin də yaşlı olması, ya növbəti hakimiyyətin çox qısa sürməsindən, ya da hakimiyyət boşluğu yaranacağından xəbər verir. Xüsusilə, üsyan dalğasının ərəb dünyasını bürüdüyü və Küveyt, Səudiyyə Ərəbistanı, Oman kimi ölkələrdə siyasi sabitliyin çox kövrək olduğu dövrdə varislik məsələsi və hakimiyyət boşluğu xalq narazılıqları ilə bərabər davam edərsə, qeyri-sabitlik qaçılmaz ola bilər.

**Səudiyyə Ərəbistanında** yüksək rütbəli şahzadələrin hamısı 70-80 yaşındadırlar. Kral Abdulla üç ay ABŞ-da və daha sonra Mərakeşdə müalicə aldıqdan sonra ölkəyə qayıdıbdır. Kralın birbaşa varisi vəliəhd şahzadə Sultan isə alzheimer xəstəliyindən əziyyət çəkməkdədir. Bundan əlavə, Kralın qardaşları - Baş nazirin ikinci müavini Şahzadə Nayif və Riyadın başçısı Salman da taxta əsas iddialı olanlardandır. Kral Abdulla oğlu şahzadə Mitebin (Milli Qvardiyanın komandiri), şahzadə Nayif oğlu Məhəmməd bin Nayifin (daxili işlər naziri müavininin köməkçisi), şahzadə Sultan isə oğlu Xalid bin Sultanın (müdafiə naziri müavininin köməkçisi) mövqelərini möhkəmləndirməyə çalışırlar. Beləliklə, taxt üçün iddialı olanların sayı və liderlik boşluğu kəskin mübarizə təhlükəsini artırır.[20]

**Küveytdə** həm Əmir-Şeyx Sabah Əl-Əhməd Əl-Cabir Əl-Sabah, həm də onun vəliəhdi Şeyx Nəvaf Əl-Əhməd Əl-Sabahın yaşlarının 70-dən yuxarı olması növbəti varisliyi qeyri-müəyyən edir. Hələ 2006-cı ildə əmirin ölümü ilə Əl-Sabah ailəsinin Cabir (hazırkı əmirin məxsus olduğu qol) və Səlim qolları arasında yaranan gərginlik Cabirlərin hakimiyyət üzərindəki monopoliyasını gücləndirməsi ilə daha da artmışdır. Bu da növbəti varislik məsələsinin qollar arasında daha kəskin ola biləcəyi ehtimalını artırır.[21]

**Omanda** Sultan Qabusun övladı yoxdur və hakimiyyətin ondan sonra əmisi oğlanlarından birinə keçəcəyi gözlənilir. Omanda sultan digər KƏŞ ölkələrindən

20 Saudi Arbia risk : scenario watchlist, Economist Intellegence Unit, The Economist, (14. 12. 2010)

21 Kuwait risk: scenario watchlist, Economist Intellegence Unit, , The Economist,( 13.12.2010)

fərqli olaraq, özünə vəliəhd təyin etmir. Əvəzində kral ailəsi onun ölümündən sonra yığışıb xələfi seçəcəklər. Əgər onlar razılaşa bilməsələr, sultan tərəfindən buraxılan məktubda adı yazılan şəxs növbəti sultan olacaqdır. Omanda bu qayda birinci dəfə tətbiq olunacağı üçün narahatlıq doğurur.[22]

**BƏƏ-nin** liderliyinə 2004-cü ilin noyabrında Şeyx Zeyidin ölümündən sonra oğlu Şeyx Xəlifə bin Zeyid Əl-Nəhyanın varis olmasının asanlıqla həyata keçirilməsi prezident vərəsəliyi məsələsində narahatlığı azaltmışdır. Həmçinin, 2006-cı ildə Dubayda vərəsəlik asanlıqla həyat keçirilibdir. Buna baxmayaraq, vərəsəlik məsələlərində, xüsusilə də kiçik şimal əmirliklərinin hakim ailələri içərisində kövrək münasibətləri nəzərə alsaq, varislik məsələsində narahatlıq qalmaqda davam edir.[23]

KƏŞ ölkələrində **hakim ailələrin daxili mübarizəsi** həyəcan doğuran digər məsələdir. Bu mübarizə də ailələrin ənənəvi xüsusiyyətlərindəndir. Lakin Qətər, Bəhreyn, Səudiyyə Ərəbistanı və Küveytdə ailə daxilində fikir ayrılığı bu ölkələrdə baş verən son hadisələr ilə yenidən gündəmə gəlmişdir. Ailədaxili fikir ayrılığı Bəhreyndə və Səudiyyə Ərəbistanında xüsusi əhəmiyyət kəsb edə bilər. Bu, iki ölkənin indiki rəhbərliyinin islahatçı kimi tanınması və onların rəqiblərinin isə əksinə mühafizəkar olmalarından irəli gəlir. Məzhəb məsələlərinin bu ölkələrin siyasi sistemlərinə təzyiqlər etdiyi bir dövrdə Bəhreyndə və Səudiyyə Ərəbistanında xalq etirazlarının nəticələri hakimiyyətdə kimlərin üstünlük qazanmasından çox asılıdır.

**Bəhreyn** Kralı Həməd bin İsa Əl-Xəlifənin oğlu və vəliəhdi Şeyx Salman bin Həmədin islahatlar və şiələr ilə uyğunlaşma siyasətinə Baş nazir Xəlifə bin Salman Əl-Xəlifə (Kralın əmisi) şübhə ilə yanaşır. Belə ki, Xəlifə hesab edir ki, Kral Həmədin islahatları şiələri razı salmaq əvəzinə, onların siyasi tələblərini daha da artırmışdır. Qeyd etmək lazımdır ki, şiələrin tələblərindən biri Xəlifənin istefası idi. Bəhreyndə baş verən hadisələr bu qüvvələr arasında fikir ayrılığını kəskinləşdirmişdir. Belə ki, BBC-nin verdiyi məlumata görə şahzadə Şeyx Salmanın "demokratiya meylli " qüvvələrlə dialoqa başlamaq təşəbbüsü Əl-Xəlifə ailəsinin parçalandığını göstərir.[24]

Şimali Afrikada, Yaxın Şərqdə və **Səudiyyə Ərəbistanının** şiələrin yığcam yaşadığı Şərq vilayətində baş verən hadisələrin islahatçı kimi çıxış edən Kral Abdulla və Baş nazirin ikinci müavini Şahzadə Nayif başda olmaqla mühafizəkarlar arasında yeni olmayan fikir ayrılıqlarını artıracağını gözləmək olar. Çox ehtimal ki, Abdullanın etirazların qarşısını almaq üçün irəli sürmək istəyəcəyi siyasi güzəştlər mühafizəkarların müqaviməti ilə qarşılaşacaqdır.

**Küveytdə,** hazırda parlamentlə hökumət arasında mübarizənin nəticəsi

22 Oman risk: Alert – risk scenario watchlist Economist Intellegence Unit, The Economist,( 21.10.2010)
23 UAE risk Alert - risk scenario watchlist Economist Intellegence Unit, The Economist, ( 27.12.2010)
24 Splits inside Bahrain's ruling al-Khalifah family, http://www.bbc.co.uk/news/mobile/world-middle-east-12760883, (16.03.2011)

olan növbəti siyasi böhranla birgə hakim ailədaxili anlaşılmazlıqlar haqqında da xəbərlər yayılmaqdadır. Əl-Sabah ailəsinin Cabir (hazırkı əmirin məxsus olduğu) və Səlim qolları arasındakı gərginlik 2006-cı ildə Şeyx Sabah Əl-Əhməd Əl-Cabir Əl-Sabahın hakimiyyətə gəlməsi ilə Cabirlərin hakimiyyət üzərindəki monopoliyasını artırması və Səlimləri sıxışdırması ilə bağlıdır.[25] Hər zaman parlamentə qarşı vahid mövqedən çıxış edən Əl-Sabah ailəsinin hökumətin buraxılması təhdidi altında yenidən daxili problemlərini necə həll edəcəyi bəlli deyildir.

**Qətərdəki** saray çevrilişləri hakim ailədaxili mübarizənin digər KƏŞ ölkələri ilə müqayisədə daha sərt olduğunu göstərir. Belə ki, Əmir Şeyx Həməd bin Xəlifə Əl-Sani və onun sələfi olan atası hakimiyyətə bu yolla gəlmişlər.[26] İndiki əmirə qarşı ən son dövlət çevrilişi cəhdi 30 yüksək rütbəli zabit tərəfindən bu ilin fevralında baş veribdir. Maraqlı məqam isə çevriliş cəhdi xəbərinin hazırkı rejimə müxalif olan hakim ailənin üzvləri tərəfindən verilən bəyanatla eyni vaxta təsadüf etməsidir. Bu bəyanatda Həməd hakimiyyətinin legitimliyinin tanınmadığı, əvəzində onun Fransada siyasi sığınacaq alan qardaşı Əbdül Əziz bin Xəlifə bin Həməd Əl-Saninin dəstəkləndiyi bildirilir.[27] Buna baxmayaraq, Qətərdə rejimin təminatı kimi çıxış edən ABŞ hərbi bazasının mövcudluğu bu cür çevrilişləri gələcəkdə də uğursuz edə bilər.

## İQTİSADİ PROBLEMLƏR ÜSYANA SƏBƏB OLA BİLƏRMİ?

**Dövlət xərcləri.** KƏŞ ölkələrində, əhalinin artım sürəti dünya göstəricilərindən yüksəkdir. Əhalinin artımı dövlətlərin büdcələrinə əlavə təzyiq göstərir, bu səbəbdən də əhaliyə göstərilən xidmətlərin keyfiyyət səviyyəsi aşağı düşür. Xidmətlərin keyfiyyət problemi Səudiyyə Ərəbistanı üçün çox önəmlidir. BMT-nin İnsan İnkişafı hesabatına əsasən, Səudiyyə Ərəbistanının əhalisinin 35 faizi göstərilən tibbi və təhsil xidmətlərinin səviyyəsindən narazıdır. Küveytdə bu, əhalinin 28 faizini təşkil edir və digər KƏŞ ölkələrində bu rəqəm 20 faizdən aşağıdır.

KƏŞ ölkələri əsasən pulsuz tibbi və təhsil xidmətlərindən əlavə, infrastruktur layihələrinə də böyük sərmayələr qoyurlar və geniş dövlət sektorunu saxlayırlar. Eyni zamanda, yerli və xarici vətəndaşların şəxsi gəlirlərinə heç bir vergi qoyulmur. Dövlət xərclərini maliyyələşdirmək üçün, onlar neft gəlirlərindən istifadə edirlər. Dövlət xərclərinin çox olması və onların neft gəlirlərindən maliyyələşdirilməsi inflyasiyaya gətirib çıxarır. Beynəlxalq Əmək Təşkilatının statistikasına əsasən KƏŞ ölkələrinin arasında, ən yüksək inflyasiya Omanda və Səudiyyə Ərəbistanındadır.[28] Qiymətlərin qalxması insanların alıcı-

25 Kenneth Katzman, Kuwait: Security, Reform, and U.S. Policy, CRS Report for Congress, http://www.fas.org/sgp/crs/mideast/RS21513.pdf, ( 8.2.2011)

26 Qatar risk: Alert - risk scenario watchtlist economist intellegence unit, The Economist,( 14.02.2011)

27 Report: Qatar emir foils coup attempt amid growing tensions, http://www1.albawaba.com/main-headlines/report-qatar-emir-foils-coup-attempt-amid-growing-tensions, (28.02. 2011)

28 Beynəlxalq Əmək Təşkilatı. http://laborsta.ilo.org/STP/guest, 28.02.2011




Mənbə: Əmək bazarının əsas göstəriciləri. Beynəlxalq Əmək Təşkilatı.
http://kilm.ilo.org/KILMnetBeta/default2.asp

lıq qabiliyyətini aşağı salır və nəticədə etirazlara səbəb olur. Məsələn, Omanda iğtişaşçıların tələblərindən biri ərzağın qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi olmuşdur.

**Əmək bazarı.** KƏŞ ölkələrinin əhalisi cavandır. Orta yaş həddi 32-dən aşağıdır. KƏŞ ölkələrində ümumi **işsizlik** səviyyəsi aşağıdır. Misal üçün, ümumi işsizlik səviyyəsi axırıncı rəqəmlərə əsasən Bəhreyndə 5,5 faiz, Küveytdə 2 faiz, Qətərdə 0,5 faiz, Səudiyyə Ərəbistanında 5 faiz və Birləşmiş Ərəb Əmirliklərində 4 faiz təşkil etmişdir. Lakin gənclər arasında işsizlik səviyyəsi ümumi işsizlik səviyyəsindən yüksəkdir. Məsələn, Beynəlxalq Əmək Təşkilatının axırıncı statistikasına əsasən, gənclərin işsizlik səviyyəsi Bəhreyndə 20 faiz, Küveytdə  11 faiz, Qətərdə 1,6 faiz, Səudiyyə Ərəbistanında 28 faiz və Birləşmiş Ərəb Əmirliklərində 12 faiz təşkil etmişdir.[29] Gənclərin arasında yüksək işsizlik sosial, iqtisadi və demoqrafik problemlərlə yanaşı, siyasi risklərə də səbəb olur. Məsələn, bu yaxınlarda, Tunisdə, Əlcəzairdə, Misirdə və Yəməndə baş verən hadisələr göstərir ki, gənclər arasında uzunmüddətli işsizlik ictimai iğtişaşlara və hətta inqilablara gətirib çıxara bilər.

KƏŞ ölkələrində, gənclər arasında ən yüksək işsizlik səviyyəsi Bəhreyndə və Səudiyyə Ərəbistanındadır. Hazırda həmin ölkələrdə etiraz aksiyaları və iğtişaşlar müşahidə olunur. Lakin bu hal

29 Əmək bazarının əsas göstəriciləri. Beynəlxalq Əmək Təşkilatı. http://kilm.ilo.org/KILMnetBeta/default2.asp, 28.02.2011




Mənbə: İnsan inkişafı hesabatı.2009. http://hdr.undp.org/en/reports/global/hdr2009/
Saif, İ. 2009. "The Oil Boom in the GCC Countries, 2002-2008," Carnegie Papers, No. 15

etiraz aksiyalarının və iğtişaşların yeganə səbəbi deyildir. Məsələn, Bəhreyndə işsiz gənclərin əksəriyyəti şiələrdir. Səudiyyə Ərəbistanında da gənclər arasında işsizlik probleminin miqyası böyükdür. Bu isə, ölkənin əhalisinin sayının digər KƏŞ ölkələri ilə müqayisədə daha artıq olması və gənclərin əhalinin 60 faizini təşkil etməsi ilə bağlıdır. Bundan əlavə, İnsan İnkişaf hesabatına əsasən, Səudiyyə Ərəbistanında digər KƏŞ ölkələrinə nisbətən korrupsiyanın miqyası daha böyükdür, mətbuat azadlığı isə daha azdır.[30] Gənclər öz növbəsində əmək bazarında olan uğursuzluğun səbəblərini bu amillərdə görürlər. Omanda işsizlik səviyyəsinə dair heç bir statistik məlumat yoxdur. Eyni zamanda, yerli xəbərlərə əsasən belə nəticə çıxarmaq olar ki, Omanda olan vəziyyət Səudiyyə Ərəbistanındakı vəziyyətə oxşardır, lakin korrupsiya və mətbuat azadlığı problemləri o qədər ciddi deyil.

KƏŞ ölkələrinin əmək bazarlarında **xarici işçilərin** sayı yerli işçilərin sayını ötür. Məsələn, Ərəb Əmək Təşkilatının statistikasına əsasən, 2005-ci ildə əmək bazarında xarici işçilərin payı Bəhreyndə 59 faiz, Küveytdə 81 faiz, Birləşmiş Ərəb Əmirliklərində 82 faiz, Omanda 66 faiz və Səudiyyə Ərəbistanında 65 faiz təşkil etmişdir.[31] İmmiqrantların əksəriyyəti Asiyadandır və onlar əsasən özəl sektor-

30 İnsan inkişafı hesabatı.2009. http://hdr.undp.org/en/reports/global/hdr2009/

31 Saif, İ. 2009. "The Oil Boom in the GCC Countries, 2002-2008," Carnegie Papers, No. 15

da çalışırlar. Özəl sektorda gəlmə işçilərin dominantlığı həmin sektorda maaşların aşağı düşməsinə səbəb olur. Nəticədə, aşağı maaşlar yerli işçiləri özəl sektora cəlb etmir və onlar dövlət sektorunda işləməyi üstün tuturlar. Aşağı məvacibə razı olunmaması mövcud geniş subsidiya sistemi ilə izah oluna bilər. Yüksək işsizliyə görə müavinət vətəndaşları aşağı məvacib verən işlərdən imtina etməyə zəmin yaradır. Lakin dövlət sektorlarının işvermə imkanları məhduddur. Beləliklə, gəlmə işçilərin əmək bazarında dominantlığı gənclər arasında işsizliyə səbəb olur.

Şirkətlərin miqrantlara üstünlük verməsində gəlmə işçilərin aşağı məvacib tələbləri yeganə səbəb deyildir. Xarici işçilər yerli işçilərə nisbətən daha təlimlidirlər. Yerli işçilərin təlim səviyyəsinin aşağı olması səbəbi həmin ölkələrin təhsil ocaqlarının proqramlarının strukturundadır. Belə ki, təhsil proqramlarının əksəriyyəti əmək bazarlarında uğurlu rəqabət aparmaq üçün lazım olan bacarıqları vermir. Məsələn, Səudiyyə Ərəbistanında tədris planında dini hissə üstünlük təşkil edir. Müasir tələblərə cavab verməyən təhsil sistemi gənclər arasında işsizliyin artmasına səbəb olur və beləliklə, ictimai iğtişaşların baş verməsinə zəmin yaradır. Dubayda (BƏƏ) ali təhsilli iş axtaranların sayı artır və orta təhsilli iş axtaranların sayını ötür, halbuki BƏƏ-nin ali təhsilli mütəxəssislərə tələbatı böyükdür.[32] Bu isə, təhsilin keyfiyyətcə aşağı olması deməkdir. Qətərdə də yerli işçilərin aşağı təlim səviyyəsi işsizliyə səbəb olur.[33] Digər KƏŞ ölkələri də eyni problemlə üzləşirlər.[34]

Xarici işçilərin yaşayış və iş şəraitləri yaxşı deyildir. Məsələn, 2006-cı ildə Hyuman Rayts Voç ( Human Rights Watch) təşkilatının hesabatında göstərilmişdir ki, bəzi hallarda Birləşmiş Ərəb Əmirliklərində xarici işçilərə maaş ödənilmir və onları iş vaxtından artıq işləməyə məcbur edirlər. Bəhreyndə də xarici işçilər eyni problemlərlə üzləşirlər. Bəhreyndə və Birləşmiş Ərəb Əmiriliklərində tikinti işçiləri tətil etsələr də, bu tətillərin miqyası böyük olmamışdır. Bundan başqa, Bəhreyndə yerli gənclər tərəfindən xarici işçilərə hücum faktları da qeyd olunmuşdur. Həmçinin, Omanda xarici işçilərə qarşı ayrı-seçkilik müşahidə olunur.[35]

Miqrantların yaşayış və iş şəraitinin pis olması, habelə yerli sakinlərin onlara qarşı ayrı-seçkiliyi onları tətil etməyə və ya iğtişaşlara məcbur edə bilər. Məsələn, 2005-ci ildə Fransada baş vermiş genişmiqyaslı iğtişaşlar göstərir ki, miqrantların problemlərinə laqeydlik hökumətlərə baha başa gəlir. Miqrantlardan gələn təhlükə KƏŞ ölkələri üçün daha aktualdır. Ona görə ki, miqrantlar əhalinin xeyli hissəsini təşkil edir. Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının statistikası-

32 Dubai sees 19 percent decrease in unemployment rate, http://news.gulfjobsmarket.com, ( 19.07.2010)

33 Unemployment rate in Qatar is the lowest in the region, http://www.onlineqatar.com, ( 02.02.2008)

34 GCC nations called to address the imbalance in local labour markets, http://www.onlineqatar.com, (21.03.2011)
UAE risk: alert-risk scenario watchlist, www.eiu.com, (27.12.2010)
Bahrain risk: alert-risk scenario watchlist, www.eiu.com, (28.01. 2011)
Oman risk: alert-risk scenario watchlist, www.eiu.com, (21.10.2010)

na əsasən 2005-ci ildə Küveytdə miqrantlar əhalinin 69 faizini, Qətərdə 81 faizini, Birləşmiş Ərəb Əmirliklərində 70 faizini, Bəhreyndə 38 faizini, Omanda 26 faizini və Səudiyyə Ərəbistanında 27 faizini təşkil etmişdir.[36] Lakin hazırda KƏŞ ölkələrində baş verən hadisələrdə miqrant amili yoxdur və yaxın gələcəkdə miqrantların iriqyaslı iğtişaşlara qoşulması gözlənilmir. Buna səbəb miqrantların hüquqlarına müəyyən məhdudiyyətlərin qoyulmasıdır. Gəlmə işçilər  işverənlərdən asılıdırlar. Məsələn, işverənin icazəsi olmadan, gəlmə işçi iş yerini dəyişə və ya ölkəni tərk edə bilməz. Həm də müqavilənin müddəti bitdikdən sonra gəlmə işçinin ölkədə qalması işverəndən asılıdır. Eyni zamanda, KƏŞ hökumətləri gəlmə işçilərin yaşayış və iş şəraitlərini yaxşılaşdırmaq üçün tədbirlər görmüşdürlər. Məsələn, Omanda xarici işçilərin şikayətlərinə baxmaq üçün  Əmək Şurası yaradılmış, həmkarlar ittifaqları qanuniləşdirilmiş və tətillərə icazə verilmişdir; BƏƏ-nin rəsmi şəxsləri xarici işçilərin yaşayış şəraitini yaxşılaşdıracaqlarını və yeni əmək qanunu yaradacaqlarını elan ediblər; Qətərdə yerli və xarici işçilərin şikayətlərinə baxılması üçün əmək məhkəməsi yaradılmışdır; Bəhreyn hökuməti bəzi sektorlarda tətillərə icazə verib və əmək qanunlarının həyata keçirilməsini təkmilləşdirmək üçün tədbirlər görmüşdür. Görülən tədbirlər miqrantlarla bağlı gərginliyi azaltmışdır.[37]

Bəhreynin, Omanın və Səudiyyə Ərəbistanının nümayişlərə və iğtişaşlara **ilkin reaksiyası** dövlət xərclərinin artırılması olmuşdur. Səudiyyə Ərəbistanının Kralı etirazlara ilkin cavab olaraq 37 milyard ABŞ dolları məbləğində yardım paketi təklif etmişdir. Daha sonra Kral vətəndaşlarına əlavə güzəşt paketi təklif etmiş, bu paketə əsasən, işsizlərə aylıq məvacib və tələbələrə əlavə təqaüd təklif olunurdu. Təhlükəsizlik sektorunda 60 min yeni iş yerinin açılması planlaşdırılıbdır. Minimal əməkhaqqı qaldırılmış, dövlət sektorunda çalışan işçilərə mükafat verilmiş, aşağı gəlirli təbəqə üçün 500 min mənzilin tikilməsi planlaşdırılmışdır. Tibbi xidmətlərin səviyyəsini yaxşılaşdırmaq üçün tibbi  sahəyə 4,3 milyard ABŞ dolları ayrılmışdır. Bunlardan əlavə, korrupsiyaya qarşı mübarizə aparmaq üçün xüsusi komissiya yaradılmışdır. Oman Sultanı 50 min yeni iş yerinin açılmasına əmr vermiş və iğtişaşçıların korrupsiyada günahlandırılan nazirləri uzaqlaşdırmaq tələbini ödəyərək, Kabinetin tərkibini dəyişdi. Bundan əlavə, o, tələbələrin təqaüdlərini qaldırdı, dinc etiraz aksiyalarına icazə verdi. Bəhreynin reaksiyası isə hər ailəyə 1000 Bəhreyn dinarı məbləğində maddi yardımın verilməsindən ibarət olmuşdur.[38]

36 İnsan inkişafı hesabatı.2009. http://hdr.undp.org/en/reports/global/hdr2009/

37 Qatar risk: alert-risk scenario watch list, www.eiu.com, (14.02.2011)
UAE risk: alert-risk scenario watchlist,www.eiu.com, (27.12.2010)
Bahrain risk: alert-risk scenario watchlist, www.eiu.com, (28.01.2011)
Oman risk: alert-risk scenario watchlist,www.eiu.com,( 21.10.2010)

38 Saudi king warns against unrest while boosting benefits, www.bbc.com, 18.03.2011
Gillespie, E. Arab revolt: could Oman turn into ‘next Egypt’?, www.bbc.com, 02.03.2011
Bahrain gifts 1,000 dinars to every family, www.kuwaittimes.net , 13.02.2011

## DAXİLİ SİYASƏTİN PERSPEKTİV İNKİŞAF SSENARİLƏRİ

Yaxın Şərq kimi qarışıq, bir çox dövlətin mübarizəyə cəlb olunduğu bölgədə perspektiv istiqamətli dəqiq proqnozlar vermək çətindir. Buna baxmayaraq, bəzi proqnozlar vermək olar. Göstərilən amilləri nəzərə alsaq, fərz etmək olar ki, KƏŞ ölkələrində baş verən hadisələr üç ssenari üzrə inkişaf edə bilər.

### *Mövcud rejimlərin devrilməsi mümkündürmü?*

**Bəhreyndə** rejimin devrilməsi ehtimalı az olsa da, bu ssenari yalnız ona KƏŞ ölkələrinin (xüsusilə Səudiyyə Ərəbistanı) və ABŞ-ın hərbi dəstəyinin kəsilməsi və paralel olaraq İranın üsyançılara yardım etməsi ilə baş verə bilər. Belə ki, Bəhreynin daxili qüvvələri çox kiçikdir (13.000 nəfər müdafiə qüvvələri, 1.200 nəfər milli qvardiya) və o, əsasən ABŞ-ın yardımından asılıdır.[39] Bəhreyndəki Səudiyyə qüvvələri isə Əl-Xəlifə hakimiyyətinin təminatçısı kimi çıxış edir. İranın Bəhreyndə birbaşa təsir vasitələri bilinməsə də, son günlərdə Küveytdə və Bəhreyndə İran İnqilab Qvardiyası keşikçiləri ilə əlaqəli casus dəstəsinin aşkarlanması bu iki ölkə də daxil olmaqla, KƏŞ ölkələrində rəsmi Tehranın mümkün təsir imkanlarından xəbər verir.

Beləliklə, ABŞ-ın nümayişçilərə güc tətbiq olunduğunu əsas gətirərək 5-ci donanmanı Bəhreyndən geri çağırması və bu ölkəyə olan hərbi yardımı dayandırması nəticəsində Əl-Xəlifə ailəsi zəifləyə bilər. Eyni zamanda, şiə üsyanının Səudiyyə Ərəbistanının Şərq vilayətinə yayılması, eləcə də Yəmənin şimalında zeydi hutsi şiələri üsyanının baş qaldırması nəticəsində Səudiyyə Ərəbistanı qüvvələrinin üsyanları yatırmaq üçün bir neçə cəbhəyə bölünməsi Bəhreyndəki Səudiyyə qüvvələrinin səmərəliliyni azalda, İranın isə əksinə təsir imkanlarını çoxalda bilər. Beləliklə, ABŞ-ın Bəhreynə hərbi yardımının kəsilməsi, Səudiyyə Ərəbistanının qüvvələrinin bir neçə cəbhəyə parçalanması və eləcə də İranın şiələrə dəstəyi ilə Əl-Xəlifə ailəsinin hakimiyyətinə son qoyula bilər. Lakin bu ssenarinin ehtimalı azdır. Belə ki, ABŞ Hüsni Mübarəkə münasibətindən fərqli olaraq, Əl-Xəlifə ailəsinin devrilməsinə çağırışlar etməyibdir. Bu, ABŞ-ın Əl-Xəlifə rejimi devriləcəyi təqdirdə şiələrin üstünlük təşkil etdiyi rejimdə İranın təsirinin artması ilə 5-ci donanmanın və digər hərbi bazaların bu ölkədən çıxarılması tələblərinin gündəliyə gətirilməsi ilə bağlı narahatlığından irəli gəlir. Eyni zamanda, Obama administrasiyası fevralın 14-də Bəhreyndə gərginliyin artdığı bir dövrdə təqdim etdiyi 2012-ci il büdcəsində hərbi və terrorizmə qarşı mübarizə yardımına və ya silah satışına hər hansı dəyişiklik etməyibdir. Bu amillər ABŞ-ın buradakı rejim dəyişikliklərini dəstəkləməyəcəyini göstərir. Eyni zamanda, Bəhreynin xarici işlər naziri Xalid bin Əhməd Əl-Xəlifənin aprelin 18-də İrandan gələn təhdidlər kəsilənə qədər KƏŞ qoşunlarının bu ölkədə

39 Kenneth Katzman , Bahrain : reform, security, and U.S policy, CRS Report for Congress, http://www.fas.org/sgp/crs/mideast/95-1013.pdf, 02.3.2011



Körfəz Əməkdaşlıq Şurası Yarımada Müdafiə Qüvvələrinin Bəhreynə daxil olması

qalmaqda davam edəcəyini bildirməsi bu ssenarini az ehtimallı edir.[40]

Bəhreyndə rejimin devrilməsi digər qonşu dövlətlər üçün də presedent rolunu oynama ehtimalı vardır. Bu xüsusilə Küveyt və Səudiyyə Ərəbistanında özünü göstərə bilər.

**Küveytdə** islamçılardan və islahatçılardan ibarət müxalifət bloku regional gərginlikdən faydalanaraq Əl-Sabah ailəsini devirmək tələblərini gündəliyə gətirə bilər. Küveytdə son günlərdə hökumətin təşkil olunması zamanı keçmiş Baş nazirin yenə də təyin edilməsi ilə siyasi böhran artmış və bir neçə ay ərzində parlamentin buraxılaraq, erkən seçkilərin keçirilməsi gözlənilir. Beləliklə, KƏŞ ölkələrindəki gərginlik fonunda Küveytdə seçkiqabağı və sonrası gərginlik artarsa, hakim ailənin devrilməsinə təşəbbüslər ssenarilərdən biri ola bilər.

Lakin Küveytdə müxalifəti təmsil edən sünni islamçıların və islahatçıların ictimai sektorda fəal olması, habelə kabinetdə və parlamentdə oturması faktını nəzərə alsaq, onların Küveytin hakim ailəsinə qarşı səfərbər olacaqları ehtimalı azdır. Bu baxımdan islamçıların mühüm ictimai və siyasi mövqelərindən, həmçinin Əl-Sabahın bəzi üzvləri tərəfindən aldıqları maliyyədən imtina edərək özlərini təhlükəyə atacaqları gözlənilmir. Küveytdə iğtişaşlar baş verərsə belə, onun miqyası böyük olmaya bilər. Belə ki, Küveytdə siyasi gərginlik mövcud olsa da, Səudiyyə Ərəbistanı və Bəhreyndən fərqli olaraq, yerli əhalinin rifahının yüksək səviyyəsi onları kütləvi iğtişaşlara qoşulmaqdan çəkindirəcəkdir.

40 Gulf troops to stay in Bahrain until Iran threat eases - minister http://gulfnews.com/gulf-troops-to-stay-in-bahrain-until-iran-threat-eases-minister-1.795497,( 18.04. 2011)

Bəhreyndə Əl-Xəlifə ailəsinin devrilməsi **Səudiyyə Ərəbistanının** Şərq vilayətində şiələrin Əl-Səud ailəsini devrilməsi tələblərinə gətirib çıxara bilər. Lakin şiələrin Krallığın ümumi əhalisinin az hissəsini təşkil etməsini və hakim ailənin devrilməsi faktının əhalinin digər təbəqələri tərəfindən dəstəklənməyəcəyini nəzərə alsaq, bu ssenari də az ehtimal olunandır.

Digər ölkələrdə - **Omanda, BƏƏ-də, Qətərdə** hakim ailələrə qarşı münasibət daha yaxşıdır.

### *Güzəştlərlə status-kvo saxlana bilərmi?*

**Səudiyyə Ərəbistanında** martın 11-də ölkə səviyyəsində çağırılan "Qəzəb Günü" baş tutmadı. Bu ölkənin demokratiya dalğasına məruz qalmayacağını və hələ uzun müddət burada status-kvonun saxlanılacağını gözləmək olar. Bu bir sıra amillərlə bağlıdır. İlk növbədə, burada, Kral əhaliyə iqtisadi və siyasi güzəştlərə getmişdir. O, sosial rifah məsələlərinə 37 milyard dollar pul ayırdığını demişdir. Eyni zamanda, hökumət ölkənin tarixində ikinci dəfə bələdiyyə seçkilərinin keçirilməsini (ilk dəfə 2005-ci ildə) elan etmişdir. Lakin bu bələdiyyə seçkilərində də qadınların iştirakına qoyulan qadağa yerli hakimiyyət orqanları tərəfindən hələ də aradan qaldırılmamışdır.[41] İkincisi, hökumət dini arqumentlərdən istifadə edərək etirazların qarşısını almaq və pisləmək üçün rəsmi ruhani qurumu səfərbər edibdir. Bu yanaşmalardan Səudiyyə Ərəbistanında sosial nəzarət üçün səmərəli metod kimi tez-tez istifadə olunur. Üçüncüsü, bu ölkədə sosial mühafizəkarlığın həddən artıq yüksək olması ərəb dünyasında baş verən və siyasi dəyişikliklərə gətirib çıxaran ictimai üsyanlara qarşı bufer rolunu oynayacaqdır. Səudiyyə gəncləri Misir və Tunis gənclərindən fərqli olaraq, qatı mühafizəkar olaraq qalır və çox ehtimal ki, sosial və siyasi dəyişiklikləri dəstəkləməyəcəklər.

Səudiyyə Ərəbistanının Şərq vilayətində şiələrin vəziyyətinə gəlincə burada gərginliyi azaltmaq məqsədi ilə Kral şiələrə daha artıq ibadət azadlıqlarının verilməsini və əvvəlki illərdə olduğu kimi məzhəblərarası dialoq təşəbbüsü irəli sürməyi nəzərdən keçirə bilər.

**BƏƏ-də və Qətərdə** demokratiya olmasa da, yerli əhalinin digər KƏŞ ölkələrinə nisbətən (Küveyti çıxmaq şərti ilə) ümumi əhalinin kiçik hissəsini təşkil etməsi və nəticədə adambaşına düşən gəlirlərin və dövlət subsidiyalarının yüksək olması onların dövlətə qarşı çıxma meylliliyini azaldır. Bu cür iqtisadi imkanlardan irəli gələrək əhali arasındakı siyasi laqeydliyin mövcudluğu və eləcə də məzhəb qarşıdurmasının olmaması narahatlıq üçün səbəbləri azaldır. Yaxın gələcəkdə neftin qiymətləri sabit qaldığı təqdirdə, dövlət xərclərinin artırılmasında bu iki ölkə heç bir çətinlik çəkməyəcək və dövlət xərclərini artıraraq öz monarxiyalarını ən azı qısa və ya orta müddətdə

41 Osama Bin Laden killed in CIA raid in Pakistan, http://gulfnews.com/news/world/usa/osama-bin-laden-killed-in-cia-raid-in-pakistan-1.802077,( 02.05. 2011)

qoruya biləcəklər. Eyni zamanda, Qətər və BƏƏ-də hökumətlərin xalqa müəyyən siyasi güzəştlər edərək seçkili parlamentə keçəcəklərini də gözləmək olar.

**Omanda** Sultan Qabus əhaliyə bir sıra iqtisadi və siyasi güzəştlər edibdir. Sultan Qabus Kral kabinetini buraxıb yeni nazirlər təyin edib, Oman Şurasına qanunverici və nəzarətedici hüquqlar verib, konstitusiyaya dəyişiklik etmək haqqında qərar verib və nümayişçilər tərəfindən istefaya göndərilməsi tələb olunan nazirləri istefaya göndərib. O, həmçinin bır sıra iqtisadi güzəştlər edib. Eyni zamanda, KƏŞ sosial məsələlərə Bəhreynlə yanaşı, Omana 10 milyard dollar yardım ayırıb ki, bu yardım düzgün yönəldiləcəyi təqdirdə edilmiş siyasi güzəştlərlə bir yerdə ölkənin sabitliyini təmin edə bilər.

**Bəhreyn və Küveyt** üçün digər ssenari birincidə şiələr və Əl-Xəlifə ailəsi arasında, ikincidə isə Əl-Sabah ailəsi və parlament arasında dialoqun baş tutması ola bilər. Bəhreynin və Küveytin digər KƏŞ ölkələrindən fərqli olaraq daha artıq plüralist və dinamik vətəndaş cəmiyyəti ənənəsi dialoqun və güzəştlərin mümkünlüyünə olan ümidləri artırır. Hər iki ölkədə hələ də situasiyanı sakitləşdirmək və dinc yolla daha legitim və təmsilçi hökumətə keçmək şansları vardır.

Bəhreyndə, xüsusilə tərəflər arasında siyasi dialoq nəticəsində şiələrə qarşı iqtisadi ayrı-seçkililiyin aradan qaldırılacağı təqdirdə status-kvonun saxlanılması ehtimalı artacaqdır. Bəhreyndə dialoqun mümkünlüyü və uğuru Kral və vəliəhd bir tərəfdən, Baş nazir başda olmaqla mühafizəkarlar digər tərəfdən hakim ailədaxili üstünlük mübarizəsindən asılı olaraq dəyişə bilər. Eyni zamanda, ediləcək güzəştlərin şiələrin müxtəlif qruplarını qane etməsi məsələsi qeyri-müəyyən olaraq qalır. Belə ki, leqal fəaliyyət göstərən qruplar dialoqa getməyə hazır olsalar da, (məsələn, Əl-Vifaq) qeyri-leqal qruplar (məsələn, Haqq hərəkatı və bəzi gənclər qrupları) xəlifənin devrilməsi tələbində israr etməkdə davam edirlər.

### *Ərəb üsyanları zor gücünə yatırılarsa...*

**Bəhreynə** Körfəz Əməkdaşlıq Şurasının Birgə Yarımada Müdafiə Qüvvələrinin yeridilməsi Səudiyyə Krallığının şiə üsyanını yatırmaqda qətiyyətini və hərbi vasitələrə əl atmaqdan çəkinməyəcəyini göstərir. Şiələrə güzəştlərin edilməsinə qarşı çıxan və etiraz aksiyalarının güclə yatırılmasına tərəfdar olan Səudiyyə Kralı Abdullanın və Əl-Xəlifə ailəsi daxilində isə mühafizəkar qanadı təmsil edən Baş nazir Xəlifənin kral Həmədə təzyiqləri nəticəsində bu ssenari ehtimal oluna bilər. Eyni zamanda, son günlərdə müxalifətə qarşı davam edən təzyiqlər - Əl Vifaqı və İslam fəaliyyət Cəmiyyətinin buraxılmasına cəhd, nümayişçilərə qarşı təqiblərin davam etməsi, dörd fəal iştirakçıya isə ölüm hökmünün verilməsi və saxlanılanlara polisin zorakılığı bu ssenarini reallaşdırar.

**Səudiyyə Ərəbistanının** neftlə zəngin Şərq vilayətində şiə oyanışına gəlincə,




Səudiyyə Ərəbistanı Kralı Abdulla bin Əbdül-Əziz Əl-Səud və Bəhreyn Kralı Həməd bin İsa Əl-Xəlifə

Bəhreyn üsyanı buradakı şiələri də ayağa qaldıra bilər. Artıq Qatiflə bərabər, bir neçə şəhərdə etiraz aksiyaları baş vermişdir. Lakin bu üsyanların qarşısını almaq üçün Krallıq geniş imkanlara malikdir və Bəhreyndə də göründüyü kimi zorakılıqdan çəkinməyə bilər.

Lakin digər tərəfdən, hətta nümayişlər yatırılsa belə, bu problemlər şiələrlə dialoqa gəlməyincə potensial təhlükə olaraq qalacaqdır. Problem həll edilməsə, Bəhreyndə və Səudiyyə Ərəbistanında əzilmiş şiələr İranın təsirinə daha tez düşəcəklər.

**Küveytin** KƏŞ-in ən demokratik ölkəsi kimi tanınmasına baxmayaraq, son dövrlərdə keçirilən etiraz aksiyalarını polisin güc tətbiq edərək dağıtması onun demokratik dövlət reputasiyasına zərbə vurub. Buna görə növbəti etiraz aksiyalarına Əl-Sabah ailəsinin dözümsüzlük göstərməsi mümkündür. Eyni zamanda, hazırda Küveytdə siyasi gərginlik o dərəcəyə çatıb ki, hətta küveytlilər hakim ailənin seçkilərdən imtina edib, əvvəllərdə olduğu kimi, (1970 və 1980-ci illərdə bir neçə illiyə parlament buraxılıb) parlamenti bir neçə il ərzində buraxacağı haqqında fərziyyələr irəli sürməyə başlayıblar. Beləliklə, parlamentlə hakim ailə arasında gərginlik nümayişlərin güc tətbiq edilərək yatırılması, daha artıq güzəştlərdən isə imtina edilməsi ilə nəticələnə bilər. Lakin ərəb dünyasını xalq üsyanlarının bürüdüyü bir vaxtda Küveyt əmirinin belə bir addım atacağı ehtimalı azdır.

**BƏƏ-də, Qətərdə** sosial şəbəkələr vasitəsilə inqilaba çağırışlar edilsə də, heç bir etiraz aksiyası baş tutmamışdır. Buna görə dövlət tərəfindən heç bir zəmin olmayan iğtişaşı yatırmaq üçün tədbirlər görməyə ehtiyac yoxdur.

**Oman** Sultanı digər KƏŞ ölkələrinə nisbətən əhaliyə daha artıq siyasi və iqtisadi güzəştlər edib, lakin ölkədə müəyyən dərəcədə xırda təxribat hərəkətləri baş verməkdə davam edir. Belə ki, ölkənin sənaye şəhəri olan Soharda etiraz aksiyaları aprelin əvvəllərində təhlükəsizlik qüvvələrinin yeridilməsi ilə bitsə də, Salalah və Sur şəhərlərində dinc etiraz aksiyaları davam etməkdədir.[42] Bu aksiyalar yenidən kütləvi xarakter alacağı təqdirdə Sultanın güc tətbiq edərək onları yatırmasını və bu dəfə artıq heç bir güzəştə getməyəcəyini də irəlicədən söyləmək olar.

## NƏTİCƏ

KƏŞ Yarımada Müdafiə Qüvvələrinin etirazları yatırmaq üçün Bəhreynə yeridilməsi yerli iğtişaşı regional böhrana yaxınlaşdıra bilər. Belə ki, son həftələrdə, İranın ərəb üsyanlarını dəstəkləməkdə israr etməsi onun qonşuları ilə münasibətlərini gərginləşdirmişdir. KƏŞ ölkələrində şiələrlə hakim ailələr arasında münasibətlər İranın yerli şiələrə təsir imkanlarından asılı olaraq dəyişə bilər. Küveytdə casus dəstəsinin aşkarlanması və Əl-Küveyt şəhərindəki Tehran səfirliyinin bu işə cəlb olunması haqqında ittihamlar, daha sonra İrana qarşı eyni ittihamların Manama tərəfindən səsləndirilməsi belə imkanların mövcudluğundan xəbər verir.[43] Eyni zamanda, Livanda, İraqda və digər ölkələrdə sünni-şiə siyasi və ya din xadimlərinin təxribatları KƏŞ ölkələrindən Bəhreyn, Səudiyyə Ərəbistanı və Küveytdə sünni-şiə münasibətlərinə öz təsiri göstərə bilər.

KƏŞ ölkələrinin daxilindəki müxalifətin imkanları və əhalinin islahatlara münasibəti nəticələrə təsir edəcəkdir. Məsələn, Səudiyyə Ərəbistanının mühafizəkar cəmiyyəti, Qətər və BƏƏ-də əhali arasında siyasi laqeydlik və müxalifətin olmaması bu ölkələrin "demokratiya meylli" dalğadan hələ bir neçə il də kənarda qalacağı ehtimalını artırır. Küveyt və Bəhreynin dinamik siyasi elitası isə öz rəhbərlərinə islahatların həyata keçirilməsi üçün təzyiqlər edə bilər.

KƏŞ ölkələrində gedən proseslərin nəticələrinə hakim ailədaxili gərginliklər də mühüm təsir göstərir. Xüsusilə, Bəhreyn və Səudiyyə Ərəbistanında hadisələrin gedişi hakim ailə daxilində islahatçılarla mühafizəkarlar arasındakı parçalanma nəticəsində hakimiyyətdə kimin üstünlük qazanmasından asılı olaraq dəyişə bilər.

Eyni zamanda, bu dövlətlərdə dotasiyaların verilməsinin davamlılığı və böyük dövlət sektorunun saxlanılması karbohidrogen ixracından gələn gəlirlərdən asılıdır. Neft qiymətlərinin davamlı düşməsi hazırkı dotasiya sistemini və dövlət sektorunu qıra, nəticədə ictimai iğtişaşlara səbəb ola bilər.

KƏŞ ölkələri ilə hərbi və müdafiə sahəsində əməkdaşlıq edən ABŞ-ın mövqeyi buradakı hadisələrin nəticəsini ərəb

42 Hundreds stage protests in Omani towns, http://gulfnews.com/news/gulf/oman/hundreds-stage-protests-in-omani-towns-1.801109, (30.04. 2011)

43 IRG behind Kuwait spy cell: minister, http://www.kuwaittimes.net/read_news.php?newsid=OTE3NDg1MjczL,( 02.04.2011)

dünyasının digər nöqtələrində baş verən hadisələrdən fərqli edəcək. Belə ki, bu regiondakı hakim ailələrin təmsil etdiyi rejimlərin təminatı kimi çıxış edən ABŞ onların əvəz edilməsində maraqlı deyildir.

Səudiyyə Ərəbistanının Kralı və Oman Sultanı dövlət xərclərini artıraraq iğtişaşların müvəqqəti qarşısını alsalar da, onlar gələcəkdə iğtişaşlarla yenidən üzləşəcəklər. Çünki dövlət xərclərinin artırılması yalnız müvəqqəti səmərə verir. Eyni zamanda, qeyd etmək lazımdır ki, Bəhreyn və Oman gələcəkdə dövlət xərclərini artırmaqda çətinlik çəkəcəklər. Bu ölkələrdə neft hasilatı ildən-ilə aşağı düşür və bu da o deməkdir ki, dövlət gəlirləri azalır. Bu dəfə, Bəhreynin və Omanın dövlət xərclərini ödəmək üçün KƏŞ onlara 20 milyard dollar həcmində yardım ayırmışdır. Lakin gələcək siyasi böhranlarda yenidən KƏŞ-dən maliyyə yardımı gözləmək düzgün olmazdı. Buna görə də, Bəhreyndə və Omanda ciddi siyasi islahatların aparılması məqsədəuyğundur. Digər ölkələr isə yaxın gələcəkdə neftin qiymətləri sabit qaldığı təqdirdə, dövlət xərclərinin artırılmasında heç bir çətinlik çəkməyəcək və dövlət xərclərini artıraraq öz monarxiyalarını ən azı qısa və ya orta müddətdə qoruya biləcəklər. Beləliklə, rejim dəyişikliyi KƏŞ-ə Tunisdə və Misirdə olduğu kimi dərhal gəlməyə bilər, lakin daha artıq hüquqlar üçün hökumətlərə olan təzyiqlər öz-özlüyündə uzun illər iqtisadi firavanlıq yardımları və repressiya qorxusu ilə susdurulan xalq üçün bir inqilabdır.

Yaxın Şərq




802983AI (R02107) 6-03

QEYD ÜÇÜN

QEYD ÜÇÜN

QEYD ÜÇÜN

QEYD ÜÇÜN

**Redaktor:** Bətul Eyvazlı
**Dizayner:** İntiqam Məhəmmədli
**Tiraj:** 500

**KÖRFƏZ ƏMƏKDAŞLIQ ŞURASI ÖLKƏLƏRİNDƏ DAXİLİ VƏZİYYƏT VƏ PERSPEKTİV İNKİŞAFIN SSENARİLƏRİ**